# Ali və Apelyasiya məhkəmələrinə yeni hakimlər təyin olundu










Noyabrın 2-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra, gündəlikdəki məsələlərin müzakirəsi davam etdirildi.

İlk olaraq bir sıra məhkəmələrə hakimlərin təyin olunması ilə bağlı məsələlər müzakirəyə çıxarıldı. Bununla bağlı məlumat verən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, ölkədə aparılan islahatlar nəticəsində məhkəmə-hüquq sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub, Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri artırılıb. 2007-ci ildən bu yana hakimlərin sayının iki dəfə artdığını deyən komitə sədrinin sözlərinə görə, Prezident İlham Əliyevin korrupsiya və neqativ hallara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələr məhkəmə-hüquq sistemindən də kənarda qalmayıb. Məhkəmə Hüquq Şurasının fəaliyyəti dövründə 230-dan çox hakim barədə intizam icraatı başlanılıb, qanun pozuntusu və digər neqativ hallara yol verdiyinə görə 100-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb.

Komitə sədri məhkəmələrdə mövcud vakansiyalar barədə danışaraq qeyd etdi ki, Ali Məhkəmədə 1, Naxçıvanda 3, Bakı Apelyasiya Məhkəməsində 11, Sumqayıt Apelyasiya Məhkəməsində 4, Gəncə Apelyasiya Məhkəməsində 3, Şirvan Apelyasiya Məhkəməsində 4, Şəki Apelyasiya Məhkəməsində 4 vakansiya mövcuddur. Yeni təyinatlar həm hakimlərin iş yükünün azalması, həm də daha çox işə baxmaq imkanı verəcək. Komitə sədri bildirdi ki, müzakirəyə çıxarılan məsələyə əsasən, Ali və Apelyasiya məhkəmələrinə təyin olunmaq üçün nümunəvi hakimlər təqdim edilir.

Qısa müzakirədən sonra hakimlərin təyin olunması ilə bağlı 7 məsələ təsdiq olundu.

Sonra "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunda, İnzibati Xətalar Məcəlləsində (üçüncü oxunuş), "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda (üçüncü oxunuş), "Televiziya və radio yayımı haqqında" (üçüncü oxunuş), "İctimai televiziya və radio yayımı haqqında", (üçüncü oxunuş) və "Teatr və teatr fəaliyyəti haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə layihələr təsdiq olundu.

İclasda son olaraq "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə), "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə) və "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə) məsələlər müzakirəyə təqdim olundu.

Gündəlikdəki məsələlər ətrafında deputatlardan Fazil Mustafa, Tahir Kərimli, Zahid Oruc, Siyavuş Novruzov, komitə sədri Rafael Hüseynov fikirlərini bildirdilər. Yekunda hər üç məsələ ikinci səsvermədə təsdiq olundu.

İclasın sonunda Milli Məclisin Sədri Oqtay Əsədov bir neçə gün sonra əvvəlcə parlamentin komitələrinin birgə iclaslarında, sonra isə plenar iclasda 2019-cu ilin dövlət büdcəsi layihəsinin müzakirə olunacağını bildirdi.

***Rəşad CƏFƏRLİ,***
***Foto F.BAĞIROVUNDUR***
***"Azərbaycan"***